


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 244 (21.905)

*23 dekabr 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Bakıda keçirilən "2017– İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransa toxunaraq bu tədbirin müxtəlif dinlərin və xalqların bir-birinə daha da yaxınlaşması, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini deyib. Dövlətimizin başçısı Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından dini rəhbərlərin böyük heyətlə bu konfransda iştirakından məmnunluğunu ifadə edib.

Qonaqlar adından danışan Qaraçay-Çərkəz Respublikasının müftisi İsmail Berdiyev "2017– İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın xalqlar arasında dostluğun möhkəmlənməsi işinə töhfə verdiyini məmnunluq hissi ilə qeyd edib.

* * *

Prezident İlham Əliyev dekabrın 22-də Gürcüstanın maliyyə naziri Mamuka Baxtadzeni qəbul edib.



## Xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesi ildən-ilə daha da sürətlənir



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Sərxanlı kəndində keçirdiyi tədbirdə məruzə ilə çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev bildirib ki, xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporlarının fəaliyyətə başlaması ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin bəhrəsidir. Belə ki, 1991-ci il dekabrın 16-da ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib.

Vurğulanıb ki, 1993-cü ildən başlayaraq dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diasporunun formalaşdırılmasına nail olunub. Ulu öndərimizin xaricdə yaşayan soydaşlarımızla görüşləri zamanı verdiyi dəyərli məsləhətlər Azərbaycan diasporunun fəaliyyətinin canlanmasına və vahid məqsəd naminə birləşməsinə stimul verib.

Bildirilib ki, bu səylərin nəticəsi olaraq 9-10 noyabr 2001-ci il tarixdə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda dahi şəxsiyyət Heydər Əliyev çox böyük tarixi əhəmiyyət kəsb edən geniş nitq söyləyib. Ulu öndər xaricdə yaşayan azərbaycanlılara tövsiyə edərək deyirdi ki, dünyada yaşayan bütün azərbaycanlılar Azərbaycançılıq ideologiyası, müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı ətrafında sıx birləşməli, bu ideologiyaya öz əməli fəaliyyətləri ilə töhfə verməlidirlər.

Həmin qurultaydan sonra dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı öz ətrafında birləşdirən icmaların mütəşəkkilliyi və fəallığı daha da artıb.

Diqqətə çatdırılıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddətdə keçirilən dünya azərbaycanlılarının sonrakı qurultaylarında xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması istiqamətində geniş fikir mübadiləsi aparılıb, əhəmiyyətli nəticələr əldə olunub, qarşıda duran vəzifələr müzakirə edilib. Həmin qurultaylar zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynayıb, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəylik bayramına çevrilib.

Qeyd olunub ki, hazırda dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun 400-dən artıq təşkilatı fəaliyyət göstərir və onların hər biri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə öz töhfəsini verir. Bu da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ideologiyanın təntənəsidir.

Məruzə ətrafında çıxışlar olub.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**

## Nəqliyyat sahəsində işlər uğurla aparılır



*Muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər görülmüş, sərnişindaşıma ilə məşğul olan sürücülərin və sahibkarların iştirakı ilə seminar-müşavirə keçirilmişdir.*

Şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək, payız-qış mövsümünü uğurla başa vurmaq üçün Naxçıvan şəhər təsərrüfathesablı Nəqliyyat İdarəsinin fəaliyyəti daim nəzarətdə saxlanılır. Avtobuslarda baş verə biləcək nasazlıqların aradan qaldırılması məqsədilə Nəqliyyat İdarəsindəki təmir sexlərində idarəyə məxsus avtobuslara gündəlik texniki baxış keçirilmişdir. Naxçıvan-Bakı və Naxçıvan-Türkiyə istiqamətində işləyən avtobusların hamısına, habelə Naxçıvan şəhərdaxili marşrutlarında işləyən avtobusların isə 30-na GPS sistemi quraşdırılmışdır.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar bütün işlər yekunlaşdırılmış, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha dəqiqləşdirilmiş, 135 xətdə 293 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir. Bu dövrdə Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə Naxçıvandan Bakıya 1337, Bakıdan Naxçıvana isə 1001 sərnişin daşınmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Noyabrda dəmir yolu nəqliyyatı vasitəsilə 12 mindən artıq sərnişin daşınıb



Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə diqqət mərkəzindədir. Bu ilin noyabr ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 10 min 920 ton müxtəlif təyinatlı yük, sərnişin qatarları vasitəsilə isə 12 min 644 sərnişin daşınmışdır. Bu dövrdə Culfa Lokomotiv Deposunda lokomotivlər 3 dəfə texniki baxışdan keçirilərək cari təmir işləri aparılmışdır.

Sərnişinlərin rahat gediş-gəlişlərini təmin etmək üçün sərnişin vaqonlarında profilaktik tədbirlər görülmüşdür. İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, təmir işləri aparılaraq nasazlıqlar aradan qaldırılmış, Ordubad-Vəlidağ sahəsində yük-sərnişin qatarlarının fasiləsiz hərəkəti təmin olunmuşdur.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən 2017-ci ilin noyabr ayında Ordubad dəmiryol sərnişin vağzalı, eləcə də Yol Sahəsinin inzibati binalarında və yolun 369-cu kilometrində yerləşən 4 saylı yol məntəqəsində aparılan yenidənqurma, Ordubad Yol Sahəsinin yardımçı binalarında, Ordubad İdarəetmə Mərkəzində aparılan əsaslı təmir işləri davam etdirilmişdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Muxtar respublikada əhalinin sosial müdafiəsi gücləndirilir

***Muxtar respublikamızda əhalinin məşğulluğunun artırılması diqqət mərkəzində saxlanılan əsas məsələlərdəndir. Ona görə də noyabr ayında aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 275 nəfər vakant iş yerlərinə göndərilmiş, 59 nəfər müvafiq peşə kurslarına, 11 nəfər ixtisasartırma kurslarına cəlb edilmiş, 11 nəfər isə kənd xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. İşlə təmin olunanlardan 8-i aztəminatlı ailələrdən, 1-i hərbi xidmətdən yeni tərxis edilən, 9-u məhdud fiziki imkanlı şəxs olmuş, sosial müdafiəyə ehtiyacı olan 5 nəfərin isə kvota yerlərinə göndərilməsi təmin edilmişdir.***

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. Ay ərzində qazanxana maşinisti və qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşə kurslarını 34 nəfər bitirmişdir. Hazırda ağac üzərində oyma, qazanxana maşinisti, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər və bərbər manikürçü peşələri üzrə kurslar davam etdirilir. Bununla yanaşı, məhdud fiziki imkanlı 19 şəxs tərəfindən toxunmuş 1700 cüt yun corab hərbi hissələrə təhvil verilmişdir. Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı tədbirlər davam etdirilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə, ümumilikdə, 101 uşaq cəlb olunmuşdur. Tədrisə cəlb olunan hərəkət və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərin keçilməsi davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbdə Şahbuz rayonu üzrə ümumtəhsil məktəblərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlərin və məktəb psixoloqlarının iştirakı ilə görüş keçirilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində isə sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasında oyun terapiyasının əhəmiyyəti adlı maarifləndirici tədbir olmuş, sağlamlıq imkanları məhdud 282 məktəbli qış geyimi ilə təmin edilmişdir.

Bu dövrdə 242 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 10 nəfərə Ahıllar Evində stasionar sosial xidmət göstərilmiş, Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 21 şəxsin, Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 27 uşağın müalicəsi təşkil edilmiş, 23 nəfərə isə sanatoriya və pansionatlara göndəriş verilmişdir. Ay ərzində 2 nəfər texniki reabilitasiya vasitəsilə təmin olunmuş, 40 nəfərə protez-ortopedik xidmət göstərilmiş, 2 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 3 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda pensiyalar vaxtında ödənilir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2017-ci ilin noyabr ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Hesabat ayında fondun gəlirləri 5 milyon 785 min 420 manat həcmində yerinə yetirilmiş və proqnoz tapşırıqlara 129,2 faiz əməl olunmuşdur.

2017-ci ilin noyabr ayında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 88 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin edilən pensiyaçılardan 26-sı yaşa görə, 22-si əlilliyə görə, 40 nəfər isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Bu dövrdə 1002 sosial sığorta şəhadətnaməsi sığortaedənlər vasitəsilə sığortaolunanlara çatdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Çörək ətirli yurd yeri

## *Dəyirmanlarımız taxıllı, çuvallarımız unlu, təknələrimiz çörəkli olsun!*

***Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması diqqət mərkəzində saxlanılır. Bu sahədə taxılçılığın inkişafı mühüm yer tutur. Buna görədir ki, taxılçılıq həm də strateji sahə sayılır. Bu gün muxtar respublikamızın, demək olar ki, bütün yaşayış məntəqələrində çörək istehsalı ilə məşğul olan müəssisələr var. Ancaq bölgənin və ya kəndin adı ilə tanınan, dadı və tamı ilə seçilən çörəklər bişirilən müəssisələr də çoxdur. Qahab kəndi də məhz çörəkləri ilə özünə geniş alıcı kütləsi toplayıb.***



...Yaxın günlərdə yolum Babək rayonunun Qahab kəndinə düşmüşdü. Elə kəndin girişindəcə çörək ətrini gətirən həzin meh sanki bu kəndlə bağlı yazacağım ilk məqalənin adını pıçıldadı: "Çörək ətirli kənd".

Bu kənd xəyallarımı uşaqlıq illərimə, təndirdə çörək yapan nənəmin çörək ətirli evinə apardı. Sən demə, kəndin hər addımda duyulan çörək ətrinin səbəbi burada 6 çörək istehsalı müəssisəsinin fəaliyyət göstərməsi imiş. Sözün düzü, bu, məni sevindirməklə yanaşı, bir qədər də təəccübləndirdi. Bir kənddə 6 çörək sexinin fəaliyyət göstərməsi maraqlı idi. Elə bu maraq da bizi çörək sexlərini bir-bir gəzməyə vadar etdi.

İlk üz tutduğumuz ünvan Novruz Əliyevə məxsus çörək istehsalı müəssisəsi oldu. Novruz müəllimlə söhbətimiz zamanı bildirdi ki, əhalinin tələbatını ödəməyin əsas yollarından biri də yerli istehsal müəssisələrinin yaradılmasıdır. Çünki yerli müəssisələrdə həm ekoloji təmiz məhsullar istehsal olunur, həm də əhalinin məşğulluğu təmin edilir. Ancaq bunun üçün öncə dövlət dəstəyi lazımdır. Bu da muxtar respublikamızda daim diqqət mərkəzində olan məsələlərdəndir. Bu gün regionumuzda kiçik sahibkarlığın inkişafına, kənd yaşayış məntəqələrində istehsal müəssisələrinin, fermer təsərrüfatlarının qurulmasına ciddi diqqət yetirilir. Yeni istehsal sahələrinin, təsərrüfatların qurulması üçün verilən kreditlər isə bu sahəyə göstərilən qayğının bir nümunəsidir. Müsahibimiz deyir ki, sahibi olduğu müəssisə 2013-cü ildə Sahibkarlığa Kömək Fondunun göstərdiyi kredit dəstəyi ilə fəaliyyətə başlayıb. Burada İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisədə hazırda 5 işçi çalışır. Burada işçilər üçün lazımi şərait yaradılıb. Məqsəd istehlakçıları keyfiyyətli çörək məhsulları ilə gündəlik təmin etməkdir.

Sahibkarlığa Kömək Fondunun kredit dəstəyi ilə öz işini quran sahibkarlardan biri də Cabir Həsənovdur. Onun da sahibkarlıq obyektində olduq. Sahibkar bildirdi ki, çörək istehsalı müəssisəsi 2007-ci ildən fəaliyyətdədir. Burada da 5 işçi çalışır. Sahibkarın sözlərinə görə, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikamızda yaşayan insanlar sosial problemlər məngənəsində sıxılırdı. Sahibkarlıq fəaliyyəti üçün də lazımi şərait yox idi. Kəndli nəinki sahibkarlıq fəaliyyətinə başlaya bilmir, əsas məşğuliyyətindən də uzaq düşürdü. Torpaqlar əkilib-becərilmirdi. Ancaq bu gün, Allaha şükürlər olsun ki, kəndli öz təsərrüfatından qazanc əldə edə bilir. Üstəlik, bununla kifayətlənmir, sahibkar kimi yaradılmış şəraitdən istifadə edərək özünü sınayır. Beləliklə, həm ailəsini təmin edir, həm də digər həmkəndlilərinə iş imkanı yaradır. Dövlətimiz tərəfindən yaradılmış bu şərait, eyni zamanda kəndlini torpağa, yaşadığı yurda sıx tellərlə bağlayır.

Başqa bir çörək istehsalı müəssisəsində isə müsahibimiz İntiqam Məmmədov oldu. Sahibkar bildirdi ki, bu gün muxtar respublikada yaradılan yeni müəssisələrin əhalinin yerli məhsullara olan tələbatının ödənilməsindəki payı günü-gündən artmaqdadır. Bütün bunlar isə sahibkarlığın inkişafına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına göstərilən qayğının nümunəsidir. İntiqam Məmmədov bildirdi ki, ona məxsus çörək istehsalı müəssisəsi 2011-ci ildən fəaliyyətdədir. Buradan əldə etdiyi gəlirlə, həm də təsərrüfatını genişləndirib. Təsərrüfatını, əsasən, heyvandarlığı inkişaf etdirmək üzərində qurub. Hazırda həm müəssisədən, həm də təsərrüfatdan əldə etdiyi qazancla ehtiyaclarını təmin edir. Onun sözlərinə görə, kənddə 6 çörək sexinin fəaliyyət göstərməsi alıcı tələbatına mənfi təsir etmir. Çünki Qahab lavaşına muxtar respublikanın hər yerindən tələbat var. Burada bişirilən lavaş elə bu kəndin torpağının yetişdirdiyi taxıldan hazırlanır. Taxıl əkini ilə məşğul olan kənd camaatı məhsulu yığıb dəyirmanlara üyüdür, ununu isə çörək sexlərinə verirlər. Beləliklə, bu işdən həm əkinçi qazanır, həm də sahibkar.

Əli Zamanov da Qahab kəndində çörək istehsalı ilə məşğul olan sahibkarlardandır. Onun sahibi olduğu müəssisədə bişirilən çörək məhsulları digərlərindən fərqlidir. Belə ki, burada təkcə lavaş deyil, xalq arasında "çıppa" və ya "tapı" adlandırılan çörək növü də bişirilir. Dövlət qayğısından bəhrələnən bu müəssisənin məhsullarına da kənd və yaxın yaşayış məntəqələrindən tələbat çox olur. Sahibkar bildirdi ki, 2011-ci ildən ailəsinin qazanc yeri bu müəssisədir. Bişirilən çörəyin xammalı da sahibkarın özünə məxsus taxıl zəmilərində yetişdirilir. Əli Zamanov bu sahələrdən əldə etdiyi taxılı dəyirmanda üyüdür, həmin undan burada çörək bişirilir. Lakin çörəyə tələbat çox olduğundan yalnız öz taxılından əldə etdiyi un ilə kifayətlənmir, taxıl əkini ilə məşğul olan kənd camaatından da taxıl alıb üyüdür. Müsahibimiz dedi ki, Naxçıvanın çayətrafı kəndlərinin hamısında vaxtilə dəyirmanlar olub. Bu dəyirmanlarda üyüdülən buğda unu keyfiyyətinə görə seçilib. Ona görə də Qahab lavaşının ətri keçmişdə olduğu kimi, bu gün də dadtamı ilə seçilir və hər kəs tərəfindən sevilərək alınır.

Sahibkar onu da bildirdi ki, keçmişlə müqayisədə bu gün, şükürlər olsun, hər şey kəndlinin öz ixtiyarındadır. Sulu, bol-bərəkətli torpaqlar biz kəndlilərə təmənnasız verilib. Dövlətimiz torpaq mülkiyyətçilərinə hərtərəfli qayğı göstərir, lazımı qədər maliyyə yardımı, toxum, gübrə, texnika verir. İstəyir ki, heç bir çətinliyimiz olmasın, torpağımızı rahat əkib-becərək, yaxşı dolanaq, özümüzə layiqli yaşayış yaradaq. Bu cür yüksək qayğının müqabilində gərək biz kəndlilər də yaxşı çalışaq, əkinimizin məhsuldarlığını artıraq ki, bundan dövlətimizə, xalqımıza, el-obamıza da bir xeyir gəlsin.

Cavad Məmmədovun sahibkarı olduğu çörək istehsalı sahəsi də Qahab kəndində fəaliyyət göstərən belə müəssisələrdəndir. Haqqında bəhs etdiyimiz bu müəssisə 2010-cu ildən fəaliyyət göstərir. Burada da lavaş istehsalı üçün, əsasən, İran İslam Respublikasından alınıb gətirilmiş avadanlıqlar quraşdırılıb. Xəmirin yoğurulması, lavaşın açılması və bişirilməsi işləri əl dəymədən yerinə yetirilir. Digər müəssisələrdə olduğu kimi, burada da sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Cavad Məmmədov bildirdi ki, indi muxtar respublikamızın əksər kənd yaşayış məntəqələrində çörəkbişirmə müəssisələri vardır. Bu, bir tərəfdən muxtar respublikamızda sahibkarlıq üçün yaradılan şəraitin nəticəsidir. Digər tərəfdən də çörək istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri arasında sağlam rəqabəti formalaşdırır.

Kənddə görüşüb söhbət etdiyimiz digər sahibkar isə Şəhriyar Məmmədovdur. O, alıcılara keyfiyyətli məhsul satmağın əsas məqsədlərindən biri olduğunu bildirdi. Onun dediklərindən: – Bizim müəssisə yeni yaranıb. 2015-ci ildən fəaliyyətə başlamışıq. Biz bu işə başlayan zaman kəndimizdə bir neçə çörək istehsalı ilə məşğul olan obyektlər var idi. Fəaliyyətimizə onlardan sonra başladığımıza görə qarşımızda müəyyən məqsədlər dururdu və belə hesab edirəm ki, bu məqsədlərə çata bilmişik. Belə ki, daha çox alıcıya çörək satmaq, sadəcə, keyfiyyətli məhsul hazırlamaqla bitmir. Bu məhsulun istehlakçıya çatdırılması da böyük səriştə tələb edir. Nəzərə almaq lazımdır ki, müştərilər günün istənilən vaxtında, isti-soyuq olmasına baxmayaraq, sifariş edə bilərlər. Bir sahibkar kimi bu sifarişi vaxtında və layiqincə yerinə yetirməliyik. Ona görə ki, çörək əvəzedilməz məhsuldur. Digər tərəfdən, bu işi vaxtında yerinə yetirə bilməsək, müştəri itirərik. Bu isə son nəticədə, müəssisəyə mənfi təsir göstərə bilər. Odur ki, müasir dövrdə çörəkçi olmağın da öz çətinlikləri var. Ancaq ümumilikdə götürdükdə, bu, çox müqəddəs peşədir. İnsanları çörəklə təmin etmək sahibkardan olduqca böyük məsuliyyət tələb edir.

..."Çörək" elə bir anlayışdır ki, onun insan taleyində, mənəviyyatında oynadığı rolu hər hansı bir epitetlə səciyyələndirmək mümkün deyil. "Vətən", "torpaq", "ana" anlayışları kimi. Bu müqəddəs nemətin ərsəyə gəlməsi üçün kəndli çalışmalıdır ki, torpağında bol taxıl yetişdirsin, onun hər sünbülünü, hər dənini vaxtında, itkisiz toplasın. Xalq şairimiz Səməd Vurğunun dediyi kimi:

*Torpağa düşməsin havayı bir dən,*
*Çörək bol olarsa, basılmaz Vətən!*

✍ **Gülcamal TAHİROVA**

# Bank sektorundakı sabit inkişaf dinamikası təmin edilib

***Makroiqtisadi sabitliyin qorunması iqtisadi inkişafın əsas şərtlərindəndir. Bu sahədə görülən işlər arasında isə, şübhəsiz ki, bank sektoru tərəfindən davamlı olaraq iqtisadi aktivliyin artırılması məqsədilə həyata keçirilən tədbirlərin də mühüm rolu vardır.***




Bütün bunlar, ümumilikdə, Mərkəzi Bankın həyata keçirdiyi pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətlərini təşkil edir. Belə ki, ölkəmizdə milli iqtisadiyyatın balanslaşdırılması, özəl investisiyalara və ixraca arxalanan iqtisadi artım modelinə keçidin sürətlənməsi və bu əsasda daha dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın təmin edilməsi, habelə innovativ ödəniş texnologiyalarının tətbiqi, əhalinin maliyyə savadlılığının artırılması, pul dövriyyəsində çevikliyin, ödəniş sistemlərində informasiya təhlükəsizliyinin ən yüksək standartlar səviyyəsində təmin olunması hazırda diqqət mərkəzində saxlanılan məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikasında bu gün maliyyə resurslarına çıxış imkanlarının artırılması, real sektora kredit qoyuluşunun davamlı dəstəklənməsi iqtisadi fəallığın yüksəldilməsi üçün verilən kreditlər kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayır.

Ötən dövr ərzində bank-kredit sahəsində görülmüş işlərlə tanış olmaq üçün Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinə müraciət etdik. İdarədən aldığımız məlumata əsasən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 dekabr 2017-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 100 milyon 978 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 2 milyon 388 min manat, uzunmüddətli kredit qoyuluşu isə 98 milyon 590 min manat təşkil edir.

Aparılan təhlillər göstərir ki, cari ilin yanvar-noyabr aylarının nəticələri, ümumilikdə, muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları üçün uğurlu olub. Banklar qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Belə ki, cari ilin ilk 11 ayı ərzində verilmiş kreditin məbləği 28 milyon 39 min manat olub. Bunun da 55 faizi, yaxud 15 milyon 415 min manatı sosial və istehlak, 22,4 faizi, yaxud 6 milyon 274 min manatı topdan və pərakəndə ticarət, 13,4 faizi, yaxud 3 milyon 743 min manatı daşınmaz əmlak, 7 faizi, yaxud 1 milyon 971 min manatı kənd təsərrüfatı, 2 faizi, yaxud 566 min manatı sənaye, 70 min manatı, yaxud 0,2 faizi tikinti sahələri üzrə verilmiş kreditlər təşkil edir.

Kənd təsərrüfatı üzrə verilmiş kreditlərin 1 milyon 488 min manatı heyvandarlığın, 91,4 min manatı isə kartofçuluğun inkişafına yönəldilib. Ötən illərdən fərqli olaraq bu il qarğıdalı əkinlərinin genişləndirilməsi üçün verilmiş 78,7 min manatlıq kredit bu sahənin inkişafında mühüm rol oynayıb. Ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas strateji məhsul olan taxılçılığın genişləndirilməsi üçün verilən kreditlərdə də artım müşahidə olunub. Belə ki, bəhs olunan dövrdə bu sahəyə 118,1 min manat həcmdə kredit yönəldilib ki, bu da kənd təsərrüfatı məhsulları üzrə xərclənmiş ümumi vəsaitin 32,8 faizini təşkil edir.

2017-ci ilin 11 ayı ərzində muxtar respublika iqtisadiyyatına kredit qoyuluşunu həyata keçirən kredit təşkilatları arasında 91,6 faizlə özəl banklar üstünlük təşkil edir. Bunlardan sonrakı yerləri 5,9 faizlə dövlət bankları, 2,5 faizlə bank olmayan kredit təşkilatları tutmaqdadır.

Bəhs olunan dövrdə "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının qeyri-nağd ödənişlərin həcminin artırılması istiqamətində gördüyü işlər də uğurlu olub. Belə ki, muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1260-a çatdırılıb. Bunlardan 575-i Naxçıvan şəhərində, 685-i isə rayon və kənd mərkəzlərindədir. Elektron ödəniş alətlərindən istifadəyə yaradılmış şərait və aparılan maarifləndirmə işləri sayəsində nağdsız ödənişlərin həcmində artım dinamikası qorunub saxlanılıb. Cari ilin yanvar-noyabr ayları ərzində hər ay orta hesabla 2,6 milyon manata yaxın məbləğdə elektron ödəniş həyata keçirilib.

Təhlil olunan dövrdə bankların əhali ilə apardığı işlərin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb olunmasında da müəyyən işlər görülüb. Belə ki, 1 dekabr 2017-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 507 min manat, o cümlədən milli valyuta ilə 4 milyon 555 min, xarici valyuta ilə isə 1 milyon 952 min manat təşkil edib. Banklara qoyulan əmanətlər arasında milli valyuta ilə cəlb edilən əmanətlərin həcmində artım dinamikası müşahidə olunub və 2015-ci ilin iyun ayından sonra ən yüksək səviyyəyə çatıb ki, bu da milli valyutanın kursunun möhkəmlənməsi istiqamətində görülən tədbirlərin nəticəsində mümkün olub.

Əldə edilmiş nəticələrin təhlili onu deməyə əsas verir ki, dünya iqtisadiyyatında baş verən mürəkkəb proseslərə və mövsümi faktorlara baxmayaraq, ümumilikdə, muxtar respublikada bank sektorunda sabit inkişaf dinamikası təmin olunub. Artıq başa çatmaqda olan 2017-ci ilin müsbət nəticələri onu göstərir ki, qarşıdakı illərdə də muxtar respublikamızda iqtisadiyyatın hərtərəfli inkişafı üçün çevik və sağlam bank-kredit fəaliyyəti davam etdiriləcək.

✍ **Əli CABBAROV**

Tarixiniz yadigarları

# Şərq memarlığının inciləri – Naxçıvan türbələri

*Azərbaycanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarı xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən qədim abidələr, mağaralar, yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir. Bununla bağlı ümummilli lider Heydər Əliyev deyirdi:* ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünyamiqyaslı tarix-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***

Bu gün həmin abidələr dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub, son 21 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa edilib, 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılıb. Həmin abidələr arasında Naxçıvan memarlıq məktəbinin inciləri olan türbələr xüsusi yerə malikdir. Bu türbələrin beynəlxalq miqyasda tanıdılması üçün işlər davam etdirilir. Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı olması da buna geniş imkanlar açır. Naxçıvan türbələrinin İslam Mədəniyyəti İrsi Siyahısına daxil edilməsi üçün sənədlər toplusu artıq ISESCO-ya təqdim edilib.

### *Yüksək bədii təfəkkür məhsulu, nadir gözəllik və zəriflik abidəsi – Möminə xatın məqbərəsi*

Azərbaycan memarlığının ən nadir və unikal abidələrindən biri Möminə xatın məqbərəsidir. Bu abidə 1186-cı ildə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilib.



Möminə xatın Azərbaycanın diplomat qadınlarındandır. O, Atabəylər dövlətinin xarici və daxili siyasətində həyat yoldaşının və övladlarının yaxın köməkçisi olub. Elə bu sədaqətinə görə ömürgün yoldaşı Şəmsəddin Eldəniz onun məzarı üzərində əzəmətli məqbərə tikdirmək qərarı verib.1175-ci ildə məqbərənin özülü qoyulub. Şəmsəddin Eldəniz Atabəy dünyadan köçəndən sonra məqbərənin inşası onların sədaqətli oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən başa çatdırılıb.

Tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Möminə xatın məqbərəsi ilə bağlı aparılan araşdırmalar haqqında" məqaləsində yazır ki, bu abidə çox zərif və yüksək bədii təfəkkür məhsuludur. Məhz buna görə də ona tamaşa etməyə gələni öz cazibəsində saxlaya bilir. Çünki məqbərədə riyazi təfəkkürlə bədiiliyin vəhdəti duyulur. Abidəyə həndəsi ornamentlər böyük ustalıqla həkk edilib. Xarici səthləri bir-birindən ayıran tillərin memarlıq bölgüsünün dəqiqliyinə heyran qalmaya bilmirsən. Möminə xatın türbəsini inşa edən Memar Əcəmi kufi xətli kitabələri həndəsi sistemləri xatırladan mürəkkəb naxış şəbəkələrinə uyğunlaşdırıb. Bütün bunlar abidənin ümumi kompozisiyasını tamaşaçıya sevdirə bilir. Həmin kufi xətli kitabələrdən biri bizi xəyalən on ikinci yüzilliyə aparır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

### *Əsrlərə meydan oxuyan tarixi abidə – Yusif Küseyir oğlu türbəsi*

Naxçıvan şəhərinin mərkəzində yerləşən və sakinlər arasında "Atababa günbəzi" adı ilə tanınan Yusif Küseyir oğlu türbəsi 1162-ci ildə inşa olunub. O, ustad memarın bu günümüzə gəlib çatan ilk böyük əsəri kimi çox qiymətlidir. Sərdabə və yerüstü qülləvarı hissədən ibarət olan türbənin kitabəsində onun kimin şərəfinə və hansı tarixdə inşa olunduğu öz əksini tapıb: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Digər kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılıb.



Memar Qadir Əliyevin yazdığı "Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq" adlı kitabda Yusif Küseyir oğlu türbəsi barədə aşağıdakı məlumatlar verilir: "İlk baxışdan təmiz həndəsi biçimi və gözəl harmonik quruluşu ilə diqqəti cəlb edən türbə ikiqatlıdır. Türbənin hər iki qatı planda düzgün səkkizbucaqlıdır. Səkkizüzlü plana uyğun olan sərdabə yastı günbəzlə örtülüb. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvarı türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan tək abidədir".

Türbənin bütün səkkiz səthi müxtəlifşəkilli həndəsi ornamentlərlə bəzədilib. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılıb, sonra gəc məhlulu ilə tavalar şəklində birləşdiriləkək səthlərin üzərində möhkəmləndirilib. Quruluş etibarilə türbənin yalnız bir səthi – qərb tərəfə baxan səthi başqa şəkildə həll edilib. Burada türbənin giriş qapısı yerləşdirilib. Çatmatağ şəkilli bu qapı üzərində haşiyələr formasında verilmiş həmin hissə çıxıntılar vasitəsilə bir portal şəklini alıb. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılıb və burada da kitabə yerləşdirilib.

### *Qarabağlar Türbə Kompleksi dünya əhəmiyyətli abidələr sırasındadır*



Bu abidənin xalqımızın maddi-mədəniyyət abidələri arasında tarixi mövqeyini, dünya əhəmiyyətli olmasını nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2016-cı il 4 iyul tarixdə "Qarabağlar Türbə Kompleksinin bərpa və tədqiq olunması haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: *"Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən və XII-XIV əsrlərə aid edilən kompleksdən dövrümüzədək qoşaminarəli baştağ və türbə gəlib çatmışdır. Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsidir".*

Türbə kompleksinin Elxanilərin hakimiyyəti illərində tikintisi geniş yayılmış əbvab-əl-birr (dindarlığın qapıları) adlı iri xatirə-xeyriyyə komplekslərindən olduğu güman edilir. Tərkibində saray, məscid, mədrəsə, xanəgah, şəfaxana, hamam və başqa binalar olan belə komplekslərin mərkəzi tikilisi "Ali günbəz" – uca türbə olur.

Akademik İsmayıl Hacıyev yazır ki, mənbələr və mütəxəssislər qoşa minarələrin XII-XIII əsrlərdə, baştağın XIV əsrdə, türbənin isə 1332-1337-ci illərdə tikildiyini qeyd edirlər. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə, türbənin tikilmə tarixi Hülaki hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyəti illərinə (1319-1335) aid edilir.

Qarabağlar Türbə Kompleksi haqqında tədqiqatçılardan M.Mirheydərzadə, Ə.Salamzadə, L.Bretanitski, K.Məmmədzadə, Ə.Əsgərzadə, V.Sısoyev, T.Yazar, S.Kərimzadə, Ş.Məmmədova və başqaları maraqlı, əhəmiyyətli fikir və mülahizələr söyləyib, abidələrin tarixi haqqında bir sıra dəqiqləşmələr aparılıb.

Qarabağlar türbəsi ikihissəlidir: sərdabə və yerüstü xatirə abidəsi. Bu abidədə qülləvarı türbənin əsas xüsusiyyətləri əks olunub. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı onun yerüstü kompozisiyasını təşkil edir. Gövdə səthinin belə yarımsilindrik çıxıntılarla işlənməsi yalnız bədii-dekorativ əhəmiyyətə malik olmayıb, eyni zamanda mühəndis quruluşu cəhətdən də əhəmiyyətlidir. Bir-biri ilə birləşmiş on iki yarımsilindrik çıxıntı divarın ümumi həcmini azaltmaqla bərabər, eyni zamanda türbəyə bir qala görkəmi də verir. Türbənin kompozisiya xüsusiyyəti dörd baştağlı olmasıdır. Dörd coğrafi səmtə cəhətlənən giriş yerləri türbəni dörd bərabər hissəyə bölür. Binanın bütün səthlərində xırda şirli yaşıl kərpiclərdən çəkilmiş üzlük qırmızımtıl kərpic fon üzərində onun səthini böyük kvadratlara bölür. Çəpinə qoyulmuş belə kərpiclərdən isə romblar əmələ gəlib. Kvadratların hər birinin içərisində iri yaşıl kərpiclərlə "Allah" və "Bismillah" sözləri yazılıb. Türbənin bütün səthində kufi xətti ilə yazılmış "Allah" sözü 200 dəfədən artıq təkrar olunur.

Türbədən, təxminən, 30 metr aralıda iki yüksək minarə ucalır. Bu minarələr Azərbaycan ərazisindəki ən qədim kərpic minarələrdəndir. Baştağın özü isə təkcə yurdumuzun deyil, bütün İslam ölkələrinin memarlığında qoşaminarəli baştağların ilk örnəklərindəndir. Qarabağlar baştağı nadir abidədir. O, gözəl kompozisiya və incə memarlıq bədii həllinə görə də dəyərli sənət əsəridir.

### *Gülüstan türbəsi Azərbaycan memarlıq abidələri arasında özünəməxsus yer tutur*



AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Gülüstan türbəsi Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindəndir" adlı məqaləsində yazır ki, Azərbaycanın qüllənvarı türbələri sırasına daxil olan abidə iki hissədən – sərdabə və türbədən ibarətdir. Ancaq digər türbələrdə sərdabə hissə yerin altında yerləşdirildiyi halda, burada sərdabə yerin səthindən yuxarıda inşa olunub. Türbənin aşağı hissəsini təşkil edən yonulmuş daşdan tikilmiş kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Yuxarı hissə isə onikiüzlü qüllədən ibarətdir.

Gülüstan türbəsi Naxçıvan memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixdə imzaladığı "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncam bu möhtəşəm abidənin bərpası və tədqiqi üçün geniş imkanlar yaradıb. Sərəncama əsasən yaradılan "Gülüstan türbəsi" tədqiqat qrupu türbənin tarixi ilə əlaqədar yeni faktlar aşkara çıxarıb. Türbənin bərpa edilməsi isə onu tarixi abidə kimi Azərbaycana yenidən qaytarıb.

### *Naxçıvanın insanlığın ikinci yaradılış məkanı olduğunu sübut edən abidə: Nuh Peyğəmbərin türbəsi*

Qoca Şərqin qapısı Naxçıvan təkcə Azərbaycanın deyil, həm də dünyanın ən qədim yaşayış məskənlərindəndir. Nuh Peyğəmbər, Dünya tufanı və onun tərəfdarları ilə əlaqədar faktların Naxçıvanla bilavasitə bağlılığı isə bu torpağın qədimliyini bir daha sübut edir.



AMEA Naxçıvan Bölməsi əməkdaşlarının çoxsaylı araşdırmalarında qeyd olunur ki, qədim yunan alimi Klavdi Ptolomey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlayıb, XI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi nəinki Nuh Peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat verib. Eradan əvvəl I əsrdə yaşamış yəhudi alimi İosif Flavinin də bu barədəki araşdırmaları tam həqiqətə uyğundur. Alim Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab edir. Rus tədqiqatçılarından İ.Şopen, V.M.Sısoyev və K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləyiblər. XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə maraqlı məlumatlar verib. O qeyd edib ki, əfsanəvi tufandan sonra Nuh Naxçıvanda yaşayıb və burada dəfn olunub. Hətta Nuh Peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. Keçən əsrin əvvəllərində, daha doğrusu, 1919-1920-ci illərdə məşhur realist rəssam Bəhruz Kəngərli Nuh Peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini altı formada naturadan kətan üzərinə köçürüb.

Tarixi ədəbiyyatda bu abidənin qədim dövrdə mövcud olduğu, VIII əsrdə bərpa edilməsi ilə bağlı məlumatlar da maraq doğurur. Araşdırmalar zamanı məlum olub ki, abidə XII əsrdə də müsəlman-səlcuq memarlıq üslubunda yenidən tikilib. Təbii aşınmalar nəticəsində abidə yenidən dağılıb. Qazıntılar zamanı yalnız abidənin bünövrəsi aşkara çıxarılıb.

Tarixdən silinmək üzrə olan türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə imzaladığı "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında" Sərəncamı əsasən mükəmməl şəkildə bərpa edilib.

### *Şeyxlər ocağı – Xanəgah*



Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan Xanəgah abidə kompleksi XII-XV əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Möminə xatın türbəsinin elementlərindən istifadə olunub. Hürufilik təliminin banilərindən olan Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn ediblər. Onun türbəsi də məhz burada yerləşir.

Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olub, tarixin müxtəlif dövrlərində isə həm də elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirib. Gəlinən qənaət odur ki, "Xanəgah" sözü "bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer, təkyə" mənasındadır. Bu türbə də muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə bərpa olunub.

Hər bir xalqın qədimliyi, ululuğu onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır. Ona görə də Naxçıvanda tariximizin əks-sədası olan abidələrimizi öyrənmək və qorumaq hər kəsin vətəndaşlıq amalına çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

**Rauf KƏNGƏRLİ**



# Koroğlu abidəsi

## xalqımızın qəhrəmanlıq tarixinə ehtiramın ifadəsidir

Azərbaycan tarixboyu dahi şəxsiyyətləri, görkəmli sənət və elm xadimləri, vətənpərvər oğulları ilə tanınıb. Neçə-neçə mərd igidlər yetişdirən bu diyar zaman-zaman namərd düşmənlərə gözdağı olub. Qəhrəman övladları olan Vətənimiz hər zaman düşmənə layiqli cavab verib. Həmin vətənpərvər insanların adları xalqın dilindən düşməyən dastanlarla əbədiləşdirilib. Onların adlarına küçələr, meydanlar salınıb, möhtəşəm abidələr ucaldılıb. Belə abidələrdən biri də Naxçıvan şəhərində ucaldılmış, xalqımızın qəhrəmanlıq tarixini özündə təcəssüm etdirən Koroğlu abidəsidir.

Abidə təkcə bir qəhrəmana göstərilən ehtiram deyil, eyni zamanda bütöv bir xalqın tarixi keçmişinə verilən önəmin təzahürüdür. Paytaxt şəhərimizin Əziz Əliyev küçəsində ucaldılan abidənin müəllifi Azərbaycan Respublikasının Xalq rəssamı, heykəltəraş Hüseynqulu Əliyevdir. Abidənin yerləşdiyi ərazi Koroğlu meydanı adlanır. Bu abidə 1988-ci ildə ucaldılıb, 2008-ci ildə isə ona yeni tərtibat verilib. Abidədə xalq qəhrəmanı Koroğlu Qıratın belində bir əlində misri qılınc, o birində isə qalxanla düşmənlərə meydan oxuyur kimi təsvir edilib. Abidə Naxçıvan Beynəlxalq Hava Limanına aparan yolun üzərində yerləşdiyi üçün muxtar respublikamıza gələn qonaqların da diqqətini cəlb edir. Burada, həmçinin müalicəvi əhəmiyyətə malik "Badamlı" mineral suyunun istehsal olunduğu müəssisə, "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti, eləcə də bu gün sakinlərin alış-veriş məqsədilə ən çox üz tutduğu məkan olan "Cahan" AVM də yerləşir. Beləliklə hər gün abidənin qarşısından keçən yüzlərlə insanın gözü önündə bu vətənpərvər xalq qəhrəmanının şücaətləri canlanır.

Sevə-sevə mütaliə etdiyimiz "Koroğlu" dastanı bu tarixi şəxsiyyət haqqında hər birimizə dolğun məlumat verir. Vətəninə sevgi və sədaqət qəhrəmanın əsas amalıdır. Bu amal uğrunda mübarizə aparan Koroğlu da qarşısına çıxan maneələrdən qorxmur, daim düşmənlə açıq, üzbəüz döyüşə can atır. O həmçinin öz igidliyini sazla, sözlə də gözəl ifadə edir. Çənlibeldən heç vaxt ayrı qala bilməyən Koroğlu öz yurdundan uzaqda olarkən belə deyir:

*Atadan bədöydü, anadan köhlən,*
*Qırat, məni Çənlibelə yetir, hey!*
*Yad yanında boz dumanda qoyma, gəl,*
*Qırat, məni Çənlibelə yetir, hey!*

Qəhrəmanın Qıratı, eləcə də ildırım parçasından hazırlanan misri qılıncı onu daha da yenilməz edir. Koroğlunu xalqa sevdirən əsas xüsusiyyətlərindən biri də onun mərdliyidir. Belə ki, dastana nəzər yetirəndə görürük ki, düşmənlə mübarizə aparan qəhrəman heç vaxt hiylədən istifadə etmir. Koroğlunun xarakterindəki mərdlik dastanın ayrı-ayrı qollarında müxtəlif hadisələrdə açıq görünür. "Həmzənin Qıratı qaçırması" qolunda Həmzə Toqata atını qaytarmağa gələn Koroğluya deyir: "Koroğlu, sən Qırat üçün gəlmişdin, onu da minmisən. Mən sənin yerinə olsam, səssiz-səmirsiz çıxıb gedərəm". Xalq qəhrəmanının cavabı isə dastanı oxuyan hər kəsdə ona dərin məhəbbət hissi yaradır: "Əgər atı səssiz-sədasız aparsam, mən də olaram Həmzə də. Onda sənlə mənim aramda day nə təfavüt qalar".

Koroğlunun ətrafına yığılan igidlər də mərd və qorxmaz, Vətənini sevən insanlardır. Xalqın içindən çıxan bu oğullar Çənlibelə, Koroğlunun elinə-obasına göz dikən düşmənlərinə qarşı apardığı ədalətli mübarizəyə dəstək verməyə gəlirlər.

Bəli, xalqımızın çoxəsrlik tarixi, qəhrəman keçmişimiz bu gün tarix və mədəniyyət abidələrimizdə yaşadılır. Bu, xalqımızın vətənpərvər və qəhrəman övladlarına sevgisinin və Vətənə məhəbbətinin ifadəsidir. Doğma diyarımızda bu gün də Koroğlu kimi vətənpərvər oğullar vardır. Xalq həmin insanlara böyük hörmət bəsləyir, dövlətimiz öz diqqətini onlardan əsirgəmir.

✍ **Nail ƏSGƏROV**

# Ordubadda növbəti humanitar aksiya keçirilir

***Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi ilbəil yüksəldilir. Səhiyyə infrastrukturunun yenilənməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olub.***



Müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq muxtar respublikaya gəlməsi də aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirsəsdulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti ötən illərdə yaranmış ənənəni davam etdirərək Ordubad rayonunda növbəti humanitar aksiya keçirir. Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan 3 günlük aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 23 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edir. Cərrahlardan Samir Aslanbəyli, Sadiq Əhmədov, Pənah Hüseynov, Nadir Abbasov, kardioloq Sevil Abbasova, otolarinqoloq Məzahir Quliyev, Sahib Səmədov, nevropatoloq Qabil Bayramov, ginekoloq Kənarə Abdullayeva, endokrinoloq Ramil Məmmədov, uroloq Hüseyn Məsimov və başqalarının iştirakı ilə əvvəlcə ambulator müayinələr aparılıb. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi lazımi şərait yaradıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə tibbi xidmət göstərir.

Cərrahi müdaxiləyə ehtiyacı olan 30 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz, yırtıq və digər əməliyyatlar aparılır. Aksiyanın ilk günü üzərində cərrahi əməliyyat aparılmış xəstələr palataya yerləşdiriliblər. Aksiya zamanı pasiyentlər, həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunurlar.

Ordubad şəhər sakinləri Zöhrə Məmmədova, Namiq Əsədov, Nəsirvaz kənd sakini Səkinə Həsənova və başqaları onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək minnətdarlıqlarını bildiriblər.

Humanitar aksiya bu gün də davam edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Rəsm ixtisası üzrə təhsil alan şagirdlərin əl işlərindən ibarət sərgi

***Dünən Naxçıvan Dövlət Rəsm Qalereyasında muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində rəsm ixtisası üzrə təhsil alan şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil edilib.***



Muxtar respublikanın mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadların dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq gənc istedadların "Qızıl kitabı"nın yaradılması, 8 istedadlı uşağın adının bu kitaba yazılması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Nazir bildirib ki, Mədəniyyət və Turizm Nazirliyinin sisteminə 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi daxildir. Onlardan Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq, Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq İncəsənət məktəblərində rəsm ixtisası tədris olunur.

Vurğulanıb ki, 2017-ci ilin 11 ayında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində rəsm ixtisası üzrə təhsil alan şagirdlərə rəssamlar tərəfindən ikisi etüd olmaqla, 3 dəfə ustad dərsi keçilib. Aprel ayında ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş rəsm müsabiqəsi keçirilib və qaliblərin rəsm işləri muxtar respublika müsabiqəsinin yekununda nümayiş etdirilib.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən və 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunan "İstedadlı uşaqlar" festivalında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində rəsm ixtisası üzrə təhsil alan şagirdlərin 69 rəsm əsəri sərgilənib. Festivalda 7 şagird öz bacarıqlarını etüd şəklində işlədikləri rəsm əsərləri ilə nümayiş etdiriblər.

Tədbirdə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Xalq Çalğı Alətləri Ansamblının konserti də olub. Ansamblın istedadlı solistlərinin ifasında muğam və təsniflər, bəstəkar mahnıları səslənib. Sonra sərgiyə baxış olub.

Qeyd edək ki, 17 şagirdin 80 rəsminin nümayiş etdirildiyi sərgidə portret, peyzaj, natürmort və digər janrlarda çəkilmiş rəsmlər maraq doğurur. Ölkəmizin və muxtar respublikamızın tarixi abidələrini, təbiətini, milli geyimlərimizi, məişət həyatımızı əks etdirən rəsmlər tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Sərginin bir neçə gün nümayiş etdirilməsi nəzərdə tutulub.

**Əli RZAYEV**

# Boks birinciliyində qaliblər müəyyənləşib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının Şərur rayon bölməsinin təşkilatçılığı ilə yeniyetmələr arasında boks üzrə rayon birinciliyi keçirilib.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş birincilikdə idmançılar 7 çəki dərəcəsində mübarizə aparıblar.

Yarışın yekun nəticələrinə əsasən Məhəmməd Məmmədov, Volkan Allahverdiyev, İbrahim Hüseynov, Miryusif Seyidov, Məhəmməd Seyidov, Vüsal Zeynalov və Şamo Abdullayev müvafiq olaraq 28, 30, 35, 40, 42, 50 və 65 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Birinciliyin sonunda qaliblərə diplomlar təqdim edilib.

# *"Şən startlar"* yarışı təşkil edilib

***Şahbuz Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi "Şən startlar" çoxnövçülük üzrə idman yarışına yekun vurulub.***



Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbdə rayon ümumtəhsil məktəblərinin komandaları arasında keçirilən yarış 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunub. Yarışda hər biri 3 oğlan və 3 qızdan ibarət olan 6 komanda mübarizə aparıb.

Sonra komandalar gücləri sınayıblar. Yekunda qalib adını 345 xal toplayan Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası qazanıb. İkinci və üçüncü pillədə isə 315 xalla Ayrınc kənd və 265 xalla Şahbuz şəhər 2 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Sonda qalib komandaların üzvlərinə tədbirin təşkilatçıları tərəfindən diplomlar təqdim olunub.

# *"Sədərək"* komandası qalib gəlib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən görüşdə "Şərur" və "Sədərək" komandaları üz-üzə gəliblər. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının təşkil etdiyi görüş Sədərək voleybolçularının 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qalib komanda Voleybol Federasiyası tərəfindən hədiyyələrlə mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktorun müavini: RAUF ƏLİYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1041